## *MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ*

UOT 37.

***Səadət Hüsü qızı Həsənova***
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi*

# ŞAH İSMAYIL XƏTAİ YARADICILIĞINDA İSLAM DƏYƏRLƏRİNİN ƏKSİ

***Саадат Гусу гызы Гасанова***
*доктор философии по педагогике, доцент*
*ведущий научный сотрудник*
*Института Образования Азербайджанской Республики*

# РОЛЬ ИСЛАМСКИХ ТРАДИЦИЙ В ТВОРЧЕСТВЕ ШАХ ИСМАИЛ ХАТАИ

***Saadat Husu Hasanova***
*doctor of philosophy in pedagogy*
*leading researcher of the Institute of Education of the Rupublic of Azerbaijan*

# THE ROLE OF ISLAMIC TRADITIONS IN SHAH İSMAIL KHATAI' WORKS

**Xülasə:** Məqalədə Şah İsmayıl Xətainin yaradıcılığında tərbiyədə islam dəyərlərindən istifadə məsələsi diqqət mərkəzindədir. Xalqımızın tarixi varlığının bir hissəsi kimi islam elə bir misilsiz xəzinədir ki, onsuz xalqın mədəniyyətini, tarixini tam dolğunluğu ilə təsəvvür etmək mümkün deyildir. İslam dəyərləri ilə tanış olmaq, haqqın, ədalətin yolunu tapmaq deməkdir, Allaha yaxınlaşmaq, mənəvi cəhətdən saflaşmaq, xeyirxah insan ola bilmək deməkdir. Məqalədə mənəvi tərbiyənin bir sıra tərkib hissələrinə dair nümunələr gətirilir. Ailə tərbiyəsində ananın və atanın rolu qeyd olunur. Şah İsmayıla görə vətənpərvərlik, ana dilinə qayğı və məhəbbətlə yanaşmaq təqdir olunmalıdır. Müəllif tərəfindən milli–mənəvi dəyərlərimiz müsbət cəhət kimi dəyərləndirilir.

***Açar sözlər:*** *islam, din, yaradıcılıq, şair, inkişaf, formalaşma*

**Резюме:** Статья посвящена вопросам воспитания. В центре внимания статьи использование в творчестве шаха Исмаила Хатаи исламских ценностей в воспитании. Являясь частью исторического существования нашего народа, ислам является таким сокровищем, без которого невозможно представить культуру и историю нашего народа. Знакомство с исламскими ценностями означает поиск пути к истине и справедливости, сближение с Богом, моральное очищение и возможность быть хорошим и порядочным человеком. В статье приводятся примеры нескольких аспектов духовного воспитания, подчеркивается роль матери и отца в семейном воспитании. По словам шаха Исмаила, следует ценить патриотизм, заботу и любовь к своему родному языку. Автор в статье также оценивает наши национально-нравственные ценности как позитивные.

***Ключевые слова:*** *ислам, религия, творчество, поэт, развитие, формирование*

**Summary:** The focus of the article on the use of Islamic values in educating Shah Ismail Khatai is in the spotlight. As part of the history of our people, Islam is such a treasure that it is impossible to imagine the full culture and history of the people without it. which means The article provides examples of several aspects of spiritual upbringing. The role of mother and father in family education is highlighted. King Ismail should be appreciated by patriotism, the care and love of his native language. The author considers our national-moral values as a positive.

***Key words:*** *islam, religion, creativity, poet, development, formation*

Səfəvilər dövlətinin banisi, böyük siyasi xadim, istedadlı sərkərdə, gözəl şair və vətənpərvər, Azərbaycan xalqının həqiqi oğlu Şah İsmayıl Xətai Şərq tarixində görkəmli sərkərdə və dövlət xadimi kimi tanınırdısa, Azərbaycan klassik poeziyası xəzinəsində Xətai təxəllüslü şair kimi də şərəfli yer tutur. Heç də təsadüfi deyil ki, Şah İsmayıl Xətai indiyədək yeddi böyük ələvi şairlərindən biri sayılır. Onun ana dilinə qayğı və məhəbbətlə yanaşmağın vacibliyi İsmayılın nəsihətində də əksini tapmışdır: ”Mən həmişə doğma torpağın bir parçasını qızıldan, ana dilinin bir sözünü ləl-cəvahirdən üstün tutmuşam. Qısa ömrümdə sizin üçün nə bacardım elədim. Əldə qılınc qələbələr qazanaraq, parçalanmış Vətəni birləşdirməyə çalışdım. Şairə görə, insanın hərəkətləri onun iç dünyasını işıqlandıran güzgüdür .

XIV əsrdə Şah İsmayıl Xətai tərəfindən təsis edilmiş Səfəvilər dövlətinin yaranması və möhkəmlənməsində islam dini ideoloji baxımdan böyük əhəmiyyət daşımışdır. Xətai fanatikcəsinə deyil, şüurlu surətdə islam dinin mənimsənilməsinin tərəfdarıdır. O, islam dinini haqq dini adlandırmaqla, onun qaydalarındakı ədalət və elmi prinsipləri ön plana çəkmişdir. Yarandığı andan insanlara hörmətlə yanaşmağı vacib şərt hesab edən bu dinin cəhətlərini nəzərə alaraq mütəfəkkir yazır:

Əzəldən əvvəli biz haqqı bildik
Haqdan nida gəldi, haqqa haqq dedik.

Şah İsmayıl Xətai bir pedaqoq kimi, dinin tərbiyəvi, elmi cəhətlərini öz irsində əhatəli şəkildə əks etdirməklə, insan psixikasına müsbət yönümdə təsir göstərmişdir. O, din vasitəsilə insanda ədalət, mərdlik, idrak, özünə inam, böyüyə hörmət, qəlb paklığına nail olmaq kimi xüsusiyyətləri aşılayır. Xətai Əlinin təcrübəsini insanlıq aləmi, ilk növbədə isə özü üçün bir örnək mənbəyi hesab edir.

Xətai özünün təriqət şeirlərində Məhəmməd peyğəmbərin, Həzrəti Əlinin şəxsiyyətlərinə hörmətlə yanaşmaqda iki cəhət:

Birinci dinin ülviliyini, ikinci onların böyük bir şəxsiyyət kimi müsbət cəhətlərini, insani hisslərini dərin zəkaya malik təfəkkürünü nəzərə çatdırır. O, peyğəmbərin simasında dinin üstünlüyünü insanın mənəvi paklanmaya doğru addımı ilə dəyərləndirir. Peyğəmbərimizin “elm çöldə dostunuz, tənhalıqda munisiniz, köməksizlikdə yoldaşınız, xoşbəxtliyə tərəf yol göstərənimiz, dostlar arasında silahınızdır” tövsiyəsini çox böyük qiymətləndirir. Başqa bir hədisdə Peyğəmbər alimləri yer üzünün çırağı, axirətin nuru bilir, biliyi bilməyənlər arasında yaymağı ən böyük sədəqə hesab edir, bilikli adamın üzünə baxmağı, onunla oturub-durmağı ibadətdən sayırdı. ”Kimdən bilik öyrənirsənsə, ona hörmət edin, onunla mehriban olun. Kimə bilik öyrədirsənsə, onunla da mehriban olun”.

Şah İsmayılın bütün fəaliyyəti kimi dini dözümlülüyü (xüsusən də, ölkənin daxilindəki olan xristianlara münasibətdə), eləcə də Avropanın xristian ölkələri ilə geniş diplomatik əlaqələr qurması onu sülhün, firavanlığın, ölkəsinin tərəqqisinin qeydinə qalan müdrik hökmdar və düşmən dövlətlərə qarşı mübarizədə etibarlı müttəfiqlər axtarıb tapan böyük diplomat kimi səciyyələndirir.

Səfəvilər dövlətinin daha bir səciyyəvi xüsusiyyəti dövlətçilik ənənələrinin, eləcə də tolerantlığın, çoxmədəniyyətli, çoxmillətli dövlət ənənələrinin varisliyidir. Xətai şair, filosof kimi keçmişin mədəni və mənəvi irsinə çox həssaslıqla yanaşırdı. Şiəlik təriqəti (Ərəb dilində” şiə” tərəfdarlar, partiya mənasını verir.) Azərbaycan qızılbaşlarının doktrinası olaraq bu rolu öz üzərinə götürmüşdü.

Şah İsmayılın özünün İmam Rzaya bağlanmasını dəstəklənməsinə şübhə yoxdur. Bu təşəbbüs onun quracağı sistem ilə irəli sürəcəyi iddia üçün çox lazımdır.

Çaldıran döyüşünün nəticələrindən asılı olmayaraq, Şah İsmayılın dühası, onun Azərbaycan xalqı qarşısındakı xidmətləri danılmazdır. O, həm mərkəzləşdirilmiş qüdrətli Azərbaycan dövləti qurmuş, həm də milli poeziyamızın, bütövlükdə Azərbaycan mədəniyyətinin və dini dəyərlərin inkişafı üçün əlverişli şəraitin formalaşmasına imkan yaratmışdır. Onun dövrü haqlı olaraq orta əsrlərdə Ön Asiya tarixində ən mütərəqqi dövrlərdən biri sayılırdı.

Şah İsmayıl Xətai Azərbaycan tarixində ilk dəfə azərbaycanlıların bütün səviyyələrdə üstün yer tutduğunu təsdiq edən dövlət yaratmışdı.

Azərbaycan hər zaman öz dini dözümlülüyü və tolerantlığı ilə seçilsə də, bu keyfiyyətlər rəsmi siyasət qismində hərtərəfli təzahürünü yalnız Şah İsmayılın hakimiyyətdə olduğu illərdə tapmışdı. Məhz vahid siyasi məkana mənsub-

luğun dərk edilməsinin insanlarda əmin-amanlıq və öz ölkəsinə inam hissi doğurması dövlətin təhlükəsizliyi və sabitliyi üçün son dərəcə vacib idi. Sosial təcrübənin inanılmaz mürəkkəb şəraitində iti zəkasını qoruyub saxlayan, ruhdan düşməyən Şah İsmayıl hər tərəfdə siyasi hərc-mərcliyin tüğyan etdiyi bir vaxtda dövlət məsələləri, xalqın mənəvi problemləri barədə düşünür və müstəqil dövlət qurmaq ideyasını həyata keçirməyə ciddi hazırlaşırdı.

Şah I İsmayılın dini islahat keçirməsi (şiəliyin dövlət məzhəbi elan edilməsi) də mövqeyin möhkəmləndirilməsi, siyasi və sinfi mübarizə əleyhdarlarının məğlub olması, mədəni-ideoloji sahədə dövlət nəzarətinin daha da genişləndirilməsi cəhdi idi. Beləliklə, dinin rolunun artması, siyasi mübarizənin kəskinliyinin nəticəsi kimi meydana gəlmişdi, lakin Səfəvi hökmdarlarının dini radikalizmi sabit təmayül deyildi. Dini ideologiya onların dünyagörüşündə dünyəvi ideologiya ilə qovuşurdu. Səfəvi şahlarının əksəriyyətinin ədəbiyyata və incəsənətə dərin maraq və qayğı göstərməsi bu həqiqəti sübut edir. Azərbaycan (türk) və fars dillərində şeirlər yazan, miniatür rəssamlığı və kalliqrafiya ilə (xəttatlıqla) məşğul olan hökmdarlar XVI-XVII əsrlərin Azərbaycan mədəniyyətinin səciyyəvi hadisəsi idi. C. Nehru Monqol hökmdarı Zahirəddin Məhəmməd Babur (1483-1530) haqqında yazıb: ”Babur cazibədar şəxsiyyət, intibah dövrünün səciyyəvi hökmdarı, cəsur və bacarıqlı insan idi. O, incəsənəti və ədəbiyyatı, mənəviyyatı və dini sevir, həyatdan zövq almağı xoşlayırdı”. C. Nehru bu dövrü belə qiymətləndirir: ”Teymurilər sülaləsinin hökmdarı Babur XVI əsrin əvvəllərində Dehli taxtına çıxdı. Səfəvilər hakimiyyəti dövründə İran incəsənəti parlaq İntibah dövrünü yaşayırdı. Bu dövr fars incəsənətinin qızıl əsri kimi məşhurdur”.

Müəllif Şah İsmayıl Xətainin İmam Əli eşqinə 12 xüsusiyyətini göstərib.

1. Şah İsmayıl Səfəvi Xətai 14 yaşında hakimiyyətə gələn, 14 il ərzində 14 eli birləşdirərək, indiyədək ən böyük Azərbaycan dövlətini-Səfəvi dövlətini yaradan bir şəxsiyyətdir.

2. Şah İsmayıl Xətai ilk dəfə türk dilini rəsmi dövlət dili elan edən dövlət başçısıdır. Halbuki özlərini türklərin varisi hesab edən Osmanlıda dövlət dili fars dili idi. Bunun nəticəsidir ki, Azərbaycan dilində fars sözləri istifadə olunduğu kimi, fars dilində də türk sözləri öz yerini tapır.

3. Şah İsmayıl Xətai ilk dəfə türk dilində heca vəznində şeir yazan şairdir. Onun türk dilində yazdığı gözəl şeirlər meydana gəldikdə şeriyyata öz damğasını vurmuş fars dili ikinci plana keçdi. Məhz onun başladığı ənənə nəticəsində Məhəmməd Füzuli kimi dahi yetişdi

4. Şah İsmayıl Xətai ilk dəfə güləşi döşək üzərinə gətirən pəhləvan idi. Onun vaxtında zorxanalar, yəni güləş – məşq zalları açılmış Azərbaycana xas bu idman növü geniş yayılmışdır.

5. Şah İsmayıl-dahi strateq idi. Öz qoşunlarını 12 İmamın(ə) eşqinə 12 yerə bölərək, aypara şəklində düzərdi. Bu düzülüş zəif mərkəzə və güclü cinahlara malik idi. Düşmən zəif mərkəzi əzməklə məşğul olduğu zaman, güclü cinahlar düşmənin qoşununu mühasirəyə alıb darmadağın edirdi. Sonralar bu strategiyanı Həzi Aslanov öz tankları ilə həyata keçirdikdə ruslar ona “Aslanovskaya podkova”, yəni “Aslanov nalı” adını verdilər.

6. Şah İsmayıl Xətai fateh idi. Tarixi Azərbaycan torpaqlarını: Şimali Ağqoyunlu və Şirvanşahlar dövlətini (Albaniya, Cənubi Ağqoyunlu dövlətini (Atropatena) və Qaraqoyunlu dövlətini (Anadolu) birləşdirərək, Vahid Azərbaycan Səfəvilər dövlətini yaratmışdır. Şah İsmayıl döyüşdə hücum taktikasınıa üstünlük versə də, heç vaxt qonşu dövlətlərin ərazisini qəsb etməyib. Onun hər bir yürüşü ya kiminsə onun dövlətinə meydan oxuması, ya da bir məzlumun imdadı nəticəsində olub. Bu da fatehlərə xasdır.

7. Şah İsmayıl Xətai zəmanəsinin dindar lideri idi. O, Bağdada daxil olarkən Bağdad əhli onu məhz belə tanıyaraq şəhərin qapılarını könüllü surətdə onun üzünə açıb, onu alqışla qarşıladı. Yalnız onun qurduğu hökumət dövründə əsrlər boyu inanclarına görə təqib olunan Əhli-Beyt(ə) ardıcılları rahat nəfəs ala bildilər. O, ilk dəfə Əhli-Beht(ə) məktəbini dövlət dini kimi elan etdi. Şah İsmayılın əmri ilə dövrün fiqh aliminin risaləsi şəriət qanunu kimi təsdiq olundu. Onun dövründə bir çox Əhli-Beyt (ə) alimi yetişərək, ölkədən kənarda da islamı yaymağa başladılar. Məhz bunun nəticəsidir ki, indi Anadoluda, Gürcüstanda, Orta Asiyada, Kəşmirdə, Pakistanda, Hindistanda və digər ölkələrdə Əhli-Beyt(ə) ardıcılları yaşayırlar. Bu bölgələrə islamı azərbaycanlı alimlər yayıblar.

8. Şah İsmayıl Səfəvi Xətai ağılasığmaz cəsarətə malik bir bahadır idi ki, başqa dövlət başçıları çadırlarından döyüşü izləyərkən, hələ 14 yaşı tamam olmamış İsmayıl qoşunun önündə hücuma keçirdi. Şirvana yürüş zamanı Kür çaı daşır, qoşunun yolunu sel alır. Qoşunda tərəddüd yayıldığını görən Şah İsmayıl atı ilə birgə çaya atılır. Onun dalınca digər sərkərdələr və qoşun da çayı yararaq qarşı sahilə keçirlər.

9. Çaldıran döyüşündən öncə Xətai, Sultan Səlimə meydan oxuyaraq onu döyüşə dəvət etdi, lakin Sultan Səlim qorxaraq özünün əvəzinə Osmanlıda yenilməz sayılan Malqoçoğlunu göndərdi. Şah İsmayılın ətrafı :"Şaha bir sərkərdə ilə vuruşmaq yaraşmaz" dedi. O, isə cavab verdi: "İstəmirəm sonra qorxub döyüşə çıxmadı desinlər". Şah İsmayıl Malqoçoğluna elə bir zərbə endirdi ki, hər iki tərəf heyrətdən alqış dedi. Onun qılıncı Malqoçoğlunun dəbilqəsini, zirehini və qalxanı yararaq, Malqoçoğlunu başından iki yerə bölmüşdü. Elə həmin döyüşdə o, qılıncla topun lüləsini kəsmişdi.

10. Şah İsmayıl Səfəvi Xətai ədalətli hakim idi. Məlumdur ki, Şah İsmayıl Osmanlı dövləti ilə vuruşmaq istəmirdi, lakin Şərqində güclü qonşu istəməyən Sultan Səlim, 2002 minlik qoşunla Azərbaycana yürüş etməyə qərarlı idi. Buna görə də, Şah İsmayıl qərara gəlir ki, Osmanlı qoşununun qarşısına çıxacaq, bütün torpaqları yandırıb, yararsız hala salsın. Məqsəd-düşmən qoşununun ac, susuz qalıb əldən salaraq geri qaytarmaq idi. Bunun üçün Şah İsmayıl torpaq sahiblərinin ziyanları müqabilində onları neçə illik vergidən azad etdi.

11. Şah İsmayıl Xətai döyüşlərdə yenilməyən sərkərdə idi. "Ya Əli!" sədası ilə özünün-kündən neçə dəfə çox qoşuna hücum edib qalib gələrdi. Buna misal kimi Şah İsmayılın 7 minlik qoşunla Ağqoyunlu Əlvəndin 30 minlik qoşunla hücum edib qalib gəlməsini, 12 minlik qoşunla Ağqoyunlu Muradın 70 minlik qoşununa hücum edib qalib gəlməsini və digərləri göstərmək olar.

12. Şah İsmayıl Səfəvi Xətai yenilikçi dövlət başçısı idi. Onun dövründə bir neçə yeni islahat həyata keçirmişdi. Bir məsələyə toxunaraq bildirək ki, bizim sahib olduğumuz üçrəngli bayrağa görə, Məhəmməd Əmin Rəsulzadəyə borcluyuq. Bu sadəcə bir bayraq deyil. Bu, Azərbaycanın inkişafının düsturudur. Yalnız bayrağımızda olan bu üç çaları inkişaf etdirməklə Azərbaycan hərtərəfli inkişaf edib qüdrətlənə bilər. Diqqət etsək görərik ki, bayrağımızın özülünü Şah İsmayıl Xətai qoyub. Məhz o tarixdə ilk dəfə Azərbaycan dövlətini bu istiqamətlərdə inkişaf etdirib: ana dilimizi rəsmiləşdirərək-türkçülüyü; yenilik edərək - müasirliyi; şəriətin əsasında qanunlar yaradaraq-dindarlığı-islamı.

Xətai bütün bu xüsusiyyətlərə görə Həzrəti Məhəmmədə (ə) borcludur. O, İmam Əli(ə) aşiqi idi. Onun üçün ideal nümunə İmam Əli(ə) idi. Xətainin bütün cəsarətinin, mərdliyinin, uğurlarının səbəbi bu eşqdə idi-Əli (ə) eşqində.

Azərbaycanda Xətai haqqında ilk geniş monoqrafik əsərin müəllifi Əzizağa Məmmədovdur. Həmin əsərdə Şah İsmayıl Xətai Nəsimi ilə Füzuli arasındakı dövrdə yaranmış yeni Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndəsi kimi təqdim edilib. Şah İsmayıl Xətainin avtoqraf əlyazmaları elm aləminə məlum deyil .1535-ci ildə məşhur kalliqraf (xəttat) Şah Mahmud Nişapuri Xətai "Divan"ının üzünü köçürüb. "Divani-Xətai"nin bu, ən mükəmməl əlyazma nüsxəsində şairin 14 qəsidəsi, 245 qəzəli və 10 rübaisi toplanıb. Xətai "Divan"ının onlarla əlyazma nüsxələri də mövcuddur. Məhəmmədəli Tərbiyət Şah İsmayıl Xətai haqqında belə məlumat verib: "XVI əsr, Xətai, bəzən də İsmayıl təxəllüsü ilə fars və türk dillərində şeir yazırdı. Onun divanı, Dəhnamə"("On məktub"), "Behcətül-əhrar" ("Azad adamların sevinci"), "Nəsihətnamə", "Mənaqibül-Əhrar" ("Sirlərin niqablanması") adlı əsərləri var".

Azərbaycanda Səfəvilər dövlətinin yaranmasının, ilkin mərhələsi Şah İsmayıl Xətainin fəaliyyəti ilə bağlıdır. Dövrünün ictimai-siyasi ziddiyyətləri onun şəxsiyyət, siyasi xadim kimi çox erkən yetişməsinə səbəb olmuşdu. "O, 10-11 yaşlarına qədər İncili, Tövratı və Quranı öyrənib, ərəb və fars dillərini mənimsəyib, müxtəlif təhlükələrə məruz qalıb".

Şah İsmayıl Xətainin poetik yaradıcılığında Səfəvi dövlətini möhkəmləndirməyə xidmət edən, bu dövlətin əsaslandığı dini görüşlərin təbliğinə həsr etdiyi əsərlər mühüm yer tutur, lakin Xətainin yaradıcılığına sırf dini-siyasi təbliğat vasitəsi kimi qiymət vermək də olmaz. Onun yaradıcılığında dünyəvi motivlər başlıca yer tutur.

Ümumiyyətlə, Şah İsmayıl Xətai dəfələrlə şeirlərində Əhli beyt nümayəndələrini misal çəkir, özünü onların nökəri hesab edirdi.

Bəs görəsən Xətainin dini əqidəsi ilə bağlı araşdırmalar niyə azlıq təşkil edir, yaxud bu haqda ədəbi nümunələr hazırlanmır?

Şah İsmayıl təkcə sərkərdə kimi qəhrəmanlığı ilə seçilməyib. Bu şəxsiyyət 3 milyon kvadrat kilometr əraziyə malik dövləti qılınc gücü ilə yox, kamil ideologiyaya bağlı olması ilə qurub. Şah İsmayıl dini şəxsiyyət kimi bir ideoloq olub. Onun dərin dövlət-230 illik dövlət qurması bunu sübut edir ki, Şah İsmayıl ideoloji bir məktəbə bağlı idi. Həmin məktəb təbii ki, İslam elçisi Məhəmməd peyğəmbərin (s) qoyduğu sünnədən su içirdi. Şah İsmayıl dəfələrlə şeirlərində Əhli-beyt nümayəndələrini misal çəkir, özünü onların nökəri hesab edirdi. Müasir dərsliklərimizdə Şah İsmayıl ya türk dilini rəsmi dövlət dilinə çevirən xadim, ya da ki, güclü qılınc vuran sərkərdə kimi təşkil olunur. Halbuki Şah İsmayıl bir ideoloji məktəbdir. Şah İsmayıl məktəbində dərin dövlətçilik prinsipləri, dini sağlam və mükəmməl yaşatma siyasəti, tolerantlıq nümunələri mövcuddur.

Şah İsmayıl Xətai "Quran"la bərabər sevimli Peyğəmbərimizin sünnəsini, də islam dəyərlərinin əsas qaynağı, qiymətli mənbəyi hesab edirdi. O, hesab edirdi ki, Peyğəmbərin sünnəsi insan və onun mahiyyəti, istək və arzuları, əxlaqi ideyaları və davranış qaydaları ilə bağlı bitkin tərbiyə konsepsiyasıdır.

Peyğəmbərimizin ədəb, əxlaq, gözəllik, iffət, mənəvi paklıq, təmizlik, məhəbbət, vicdan, natiqlik məharəti, təvazökarlıq, qonaqpərvərlik, əməyi sevmək, islamı qorumaq, evlənmək, həyalı və namuslu olmaq və s. insani keyfiyyətlərlə bağlı fikirləri dediklərimizi təsdiq edir.

Şairin "Nəsihətnamə" əsəri həcmcə yığcam olub, lirik poemadır. Burada süjet xətti yoxdur. Əsəri dini-fəlsəfi mövzudadır. Onu sufi-qızılbaş ideyalarının müxtəsər poetik abidəsi hesab olunur, çünki buradakı qayə və mətləblər, irəli sürülən fikirlər sufi-qızılbaş müridlərinə, qazılarına, beyətçilərinə tövsiyələri, məsləhətləri və nəsihətləridir. Əsər sanki gənclərə müraciət tərzində yazılmışdır.

Orta əsrlər islam mədəniyyəti və Azərbaycan dedikdə, Şah İsmayıl Xətai fəlsəfi-poetik dühasında din və islam mövzusunun yeri və rolundan söz açıldıqda, şair daim yada düşür... "Erkən ümumtürk kultür enerjisi ilk qlobal ifadəsini "Kitabi-dədə-Qorqud"da, orta əsrlərin və orta Asiya Qafqaz çevrəsində ortaq renessansı öz ilk yekununu Nizamidə, türk-islam intibahı öz böyük zirvəsini Xətaidə tapmışdır. Xətai təkcə şair deyil, həm də böyük filosof idi.

Şərqdə və eləcə də Azərbaycanda heç bir böyük şair, sənətkar, mütəfəkkir sufilik fəlsəfəsi kimi ilahi dini-fəlsəfi təlimdən yan keçə bilməmişdir. Şah İsmayıl Xətainin fəlsəfi poeziyasında da sufilik təliminin təsiri duyulur. O, dahi şair Kərbəla hadisələrindən bəhs edən M. Füzulini "Hədiqətü-s-süadə"(Xoşbəxtlər bağı) adlı əsərini dönə-dönə yüksəklərə qaldırırdı. "Hədiqətü-s-süəda" əsəri "şahidlik abidəsi", "xoşbəxtlik abidəsi" kimi də tərcümə edilir, səciyyələndirilir. Şair qeyd edirdi ki, M. Füzuli əsərində Kərbala hadisələri islam və şəriət hüdudlarını gözləməklə, dinin ruhuna uyğun təsvir etmişdir. Dini mərasim və ənənələr yaddaşımızı saflaşdıran, kamilləşdirən amil kimi vurğulanır. "Mətləül-Etiqad"("Etiqadın mənşəyi"), "Leyli və Məcnun", "Bəngü-badə", "Şikayətnamə" və s. Əsərləri ilə dahi şair M. Füzuli Xətaiyə görə, bütün zamanlar üçün əvəzedilməz irs qoyub getmişdir. "Bu əsərlərin müəllifi, humanist və mütərəqqi ideyalar carçısı idi. Azərbaycan fəlsəfi və ictimai fikir tarixinə, bütövlükdə elm və mədəniyyətinə nəzər salsaq görərik ki, heç kim islam məsələsi, dini dəyərlər, din tarixi, dinlə bağlı başqa məsələlərdə biganə qalmamışdır. O cümlədən Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, N. Tusi, Ş. Sührəvərdi və s. kimi dahi mütəfəkkirlərimiz din, ilahiyyat mövzusu ilə xüsusi məşğul olmuşlar.

Azərbaycanın dahi söz ustadı, mütəfəkkir, pedaqoji, dünyəvi elmlərə və dini biliklərə ətraflı bələd olan Xətai şəxsiyyətinin formalaşmasında əqli tərbiyəni və əxlaq tərbiyəsini vəhdətdə götürür və özünütərbiyəyə xüsusi əhəmiyyət verir.

Xətainin dinə olan məhəbbəti, dəyəri ölçülməz səmimi xarakter daşıyır. O, yalnız əqlən, kəmalən yetişib Allahı dərk etməyin mümkünlüyünü bildirir. Dinə aparan yolun ən ülvi xüsusiyyətlərlə əhatə olunduğunu bildirməklə, insanları bu ülviliyin gözəlliyini duymağa səsləyir.

Yuxarıda deyilənlərdən bir daha belə qənaətə gəlirik ki, Şah İsmayıl Xətainin yaradıcılığı həqiqətən təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici imkanlara malikdir.

**Problemin aktuallığı.** Şah İsmayıl Xətainin yaradıcılığı tədqiqat obyekti kimi seçilməsi həmişə öz aktuallığını saxlayacaqdır.

**Problemin yeniliyi.** Şah İsmayıl Xətai yaradıcılığında tərbiyə məsələlərində dini dəyərlər diqqət mərkəzinə gətirilir.

**Problemin praktik dəyəri.** Məqalə tərbiyədə dini dəyərlərdən istifadə məsələlərini öyrənən pedaqoqlar, doktorant və dissertantlar, magistrantlar, bu məsələlərlə bağlı tədqiqat aparan şəxslər üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı: Mütərcim, 2013.
2. Əxlaqnamə. Mirzə Əhməd Mirzə Xudaverdi oğlu. Bakı: Azərnəşr, 1975.
3. İbrahimov A., Xəlilov H. Sağlam övlad, düzgün tərbiyə, təmiz nitq. Bakı: Misri, 2004.
4. Qaralov Z.İ. Tərbiyə. III cilddə, Bakı: Pedaqogika, 2003.

**E-mail:** hasanovaseadet51@gmail.com

**Rəyçilər:** *ped.ü.fəls.dok.,* **İ.B. Əmirəliyeva,**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**

**Redaksiyaya daxil olub:** 30.10.2019